

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 10 (23.422)

18 yanvar 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Veteranların ümumi yığıncağı olub



***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Veteranlar Şurasının ümumi yığıncağı keçirilib. Yığıncağı giriş sözü ilə Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov açıb.***

Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov şuranın 2019-cu il ərzində gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ilə çıxış edib.

Bildirib ki, nazirliyin Veteranlar Şurası 2018-ci ilin oktyabr ayında yaradılıb. 2019-cu il ərzində şura ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş və "Veteranlar haqqında" qanunla təsbit edilmiş prinsiplərə əsaslanaraq muxtar respublika daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən aparılan siyasətə uyğun şəkildə, eləcə də nazirliyin müvafiq normativ sənədləri və Daxili İşlər nazirinin verdiyi tapşırıq və tövsiyələr əsasında fəaliyyət göstərib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə şəxsi heyətlə təlim-tərbiyə işinin aparılması, gənc əməkdaşların peşə vərdişlərinin artırılması, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılması, nizam-intizama və qanunçuluğa ciddi əməl edilməsi istiqamətində həyata keçirilən tədbirlərdə veteranların yaxından iştirakı təmin olunub. Onların təhsil müəssisələrində, müxtəlif mərasimlərdə, kütləvi tədbirlərdə ictimaiyyət nümayəndələri qarşısında çıxışları təşkil edilib. Veteranlar ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin profilaktikası və açılmasına, əhali arasında hüquqi maarifləndirmə tədbirlərinə və digər işlərə də cəlb olunublar.

Məruzə ətrafında şəhər və rayon polis şöbələri veteranları şuralarının sədrləri, Şərur və Babək Rayon Polis şöbələrinin rəisləri çıxış ediblər. Sonra qərar layihəsi oxunub.

Yığıncaqda nazir, general-leytenant Fazil Ələkbərov çıxış edərək bildirib ki, şərəfli xidmət, rəşadəti döyüş yolu keçərək "veteran" adını qazanmış belə insanlara böyük dəyər verən Ali Məclisin Sədri onların xidmətini yüksək qiymətləndirərək demişdir: ***"Bu şəxslərin vətən yolunda göstərdikləri xidmətlər digər insanlar üçün də nümunədir, onlar yalnız bir amal – Vətən yolunda xidmət etmişlər. Ona görə də müvafiq kateqoriyadan olan insanlar ölkəmiz və xalqımız qarşısındakı xidmətlərinə görə dövlətimizin himayəsi və qayğısı altında yaşayacaqlar".***

Qeyd olunub ki, nazirlik sistemində həyata keçirilən struktur islahatların tərkib hissəsi olaraq daxili işlər orqanlarında polis veteranları ilə aparılacaq işin təşkili və onlarla qarşılıqlı fəaliyyətin aktiv mərhələyə keçirilməsi əsas hədəflərdən biri kimi qarşıya qoyulub.

Diqqətə çatdırılıb ki, hesabat dövründə polis veteranları daxili işlər orqanlarına yaxından köməklik edərək bir sıra istiqamətlər üzrə ardıcıl fəaliyyət göstəriblər. Xüsusilə inzibati hüquqpozmalar, münaqişəli ailələr, təmizlik-abadlıq işləri, əhalidə olan silahların yığılması və digər sahələrdə aparılan işlərdə xüsusi aktivlik hiss olunmaqdadır.

Nazir vurğulayıb ki, Veteranlar şuraları və ərazi polis orqanlarının müvafiq xidmətləri daxili işlər orqanlarından təqaüdə buraxılmış bütün polis əməkdaşlarının qarşılıqlı birgə fəaliyyətə cəlb olunması üçün tədbirləri davam etdirməli və onların hamısı ilə sıx əlaqə yaradılmalıdır. Bu məqsədlə polis orqanlarında veteranlarla mütəmadi görüşlər keçirilməli, onların sosial problemlərinin həllinə köməkliklər göstərilməlidir.

Qeyd olunub ki, polis veteranlarının imkanlarından milli və dövləti maraqların təmin olunması istiqamətində geniş istifadə edilməli, veteranlarımız mütəmadi olaraq dövlət əhəmiyyətli aktual mövzularla kütləvi informasiya vasitələrində çıxışlar etməlidirlər. Hamilik işinin təşkilində, peşəkar kadr potensialının formalaşdırılması və şəxsi heyət arasında psixoloji durumun daha da yüksəldilməsinə diqqət artırılmalıdır.

Nazir deyib ki, bu gün muxtar respublikanın hər bir guşəsi quruculuq-abadlıq işləri ilə əhatə olunub. Ona görə də polis veteranları fəaliyyətlərini aktiv şəkildə davam etdirməli, mövcud infrastrukturun, asayişin və səliqə-sahmanın qorunmasında bilavasitə iştirakçı olmaqla, əhali arasında maarifləndirici-profilaktik söhbətlər aparmalıdırlar. Həmçinin onlar ictimai-siyasi vəziyyətlə də ciddi maraqlanmalı, sosial şəbəkələrdə yayılan və həqiqətə uyğun olmayan məlumatların təkzib olunmasını təmin etməlidirlər.

Nazirliyin Veteranlar Şurası, aid xidmət rəisləri və ərazi polis orqanlarının rəisləri veteranlarla qarşılıqlı birgə fəaliyyətin səmərəli təşkili istiqamətində lazımi tədbirləri həyata keçirməlidirlər.

Nazir Naxçıvan Muxtar Respublikasında veteranlarla aparılan işin Ali Məclisin Sədri cənab Vasif Talıbovun xüsusi nəzarəti, diqqət və qayğısı ilə həyata keçirildiyini vurğulayaraq bu işin səmərəliliyinin artırılması üçün onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda fərqlənən polis veteranları mükafatlandırılıb.

✍ Muxtar MƏMMƏDOV

## Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirilib

***Əvvəlcə torpaqlarımız uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov tədbirdə ətraflı çıxış edərək bu qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə danışıb. Daimi Nümayəndəliyin rəhbəri bildirib ki, Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm də unudulmaz qəhrəmanlıq səhifəsi kimi yaşayıb. Bu qanlı cinayət aktı qəlbi müstəqillik həsrəti ilə döyünən vətəndaşlarımızın, insanların azadlıq eşqini söndürə bilmədi və xalqımız canı, qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşdu.

Qeyd edilib ki, 20 Yanvar faciəsi günlərində xalqın səsinə ilk səs verən məhz ümummilli liderimiz Heydər Əliyev oldu. Həmin vaxt Moskvada hələ xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, bu qanlı təcavüzə qarşı kəskin etirazını bildirdi, qoşunların dərhal Bakıdan çıxarılmasını tələb etdi.

Bildirilib ki, ümummilli lider Heydər Əliyev xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il fevral ayında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların Sovet qoşunları tərəfindən qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət aktı kimi qiymətləndirilib, müzakirələrin yekunu olaraq həmin ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul edilib. Ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsini, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə çox mühüm tədbirlər həyata keçirir.

Bildirilib ki, 20 Yanvar faciəsinin 30-cu ildönümü Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlərlə qeyd ediləcək.

Sonda Bəxtiyar Əsgərov xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fədakarlığı, inamlı daxili və xarici siyasəti nəticəsində həllini tapacağına əminliyini ifadə edib. Vurğulayıb ki, Naxçıvanda düşmən üzərində əldə edilmiş hərbi uğurlarımız, on bir min hektardan çox Vətən torpağının düşmən tapdağından azad edilməsi onu göstərir ki, xalqımızın düşmən üzərində inamlı qələbəsi uzaqda deyil.

Tədbir digər çıxışlar və bədii kompozisiya ilə davam etdirilib.

AZƏRTAC

## "20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq tarixi" mövzusunda interaktiv dərs



***"20 Yanvar faciəsi təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilən dəhşətli terror aktıdır". Bu fikir Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbi arasında "20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq tarixi" mövzusunda keçilən interaktiv dərsdə səsləndirilib.***

İnteraktiv dərsdə bələdçi Elvira Qədimova bildirib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş yollarını əks etdirən materiallar saxlanılır. Eyni zamanda bu mədəniyyət müəssisəsində qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Xatirə Muzeyində azərbaycanlılara qarşı 1905-1907-ci, 1918-1920-ci illərdə törədilən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə soydaşlarımızın öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlar sərgilənir.

Bildirilib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə ümummilli lider Heydər Əliyevin 20 Yanvar faciəsi ilə bağlı imzaladığı fərmanların surətləri, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş şücaətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Vurğulanıb ki, 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları başlanıb və bununla da 20 Yanvar faciəsinin ilk qanlı səhifəsi yazılıb, ilk şəhidlər verilib. Buna baxmayaraq, naxçıvanlılar düşmənin önündə mərdliklə dayanaraq qəhrəmancasına mübarizə aparıb, Naxçıvanı qoruyub saxlayıblar.

Azərbaycan xalqının milli azadlıq hərəkatına və müstəqillik tarixinə 20 Yanvar hadisəsi şanlı səhifə kimi daxil olub. Bu hadisəni Azərbaycan tarixinə milli əsarətə, qətliama qarşı mübarizə günü kimi yazan qəhrəman şəhidlərimizin müqəddəs xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.



Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb



Babək qəsəbə 1 nömrəli tam orta məktəb

Qeyd edək ki, həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunub.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti



# 20 Yanvar faciəsindən 30 il ötür



***Bakıda sovet ordusu tərəfindən 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı kütləvi qırğın törədilmişdir. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Ozamankı SSRİ rəhbəri Mixail Qorbaçov başda olmaqla, sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartı"ndan məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi. 20 Yanvar faciəsi zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir.***

## 20 Yanvar: xalqımızın qəhrəmanlıq tarixi

Bu qanlı terrora qədər artıq Naxçıvanın Ermənistanla sərhədində ermənilər Sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçmişdilər. Bakıda və Azərbaycanın digər bölgələrində sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarı ilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə olunduğunu sübut edirdi. Sədərəyi qoruyan könüllülər oldu. Həmin gün 8 şəhid verildi. Erməni quldurları Naxçıvan torpaqlarını ələ keçirmək məqsədilə 1990-1993-cü illərdə dəfələrlə Sədərəyə hücum ediblər. Daha dəqiq desək, bu qısa müddətdə Sədərəkdə 14 dəfə qanlı döyüş olub. Həmin döyüşlərdə 108 nəfər şəhidlik zirvəsinə ucalıb.

Bu dövrdə Naxçıvanda baş verən hadisələri ulu öndər Heydər Əliyev belə dəyərləndirmişdir: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi".***

20 Yanvar faciəsinə – bu qanlı terror aktına ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirmiş, bu cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi kəskin ittiham etmişdi. Görkəmli dövlət xadimi Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb edərək demişdir: ***"Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".***

Onu da xüsusi vurğulamaq lazımdır ki, SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ancaq ulu öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etirazını, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü bildirmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlunun bu bəyanatı bütün dünyada geniş əks-səda doğurmuşdur.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının ən çətin anında Moskvadan doğma Vətəninə qayıdanda Azərbaycan çox ağır günlərini yaşayırdı. Respublikamız parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Xalqımızın böyük oğlu Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Böyük siyasətçinin öz xalqına olan sevgisi, xalqın da ümummilli liderimizə inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderimiz tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Qərarda deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətlərin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır". Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunması da öz əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ümummilli liderimizin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə baş vermişdir.

Bu gün o faciədən 30 il keçir. Ancaq şəhidlərimiz hər an xatırlanır, böyük minnətdarlıqla anılır. Bu gün Azərbaycan həqiqətlərinin dünyaya olduğu kimi çatdırılması üçün bütün imkanlardan istifadə edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirir. Dövlət başçısının müvafiq fərmanları ilə hər il 20 Yanvar şəhidlərinin ailələrinə, bu terror hadisələrində sağlamlıqlarını itirmiş şəxslərə Prezident təqaüdlərinin təsis edilməsi və ilbəil artırılması bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısının bariz ifadəsidir.

Ölkə başçısının 2019-cu il 13 dekabr tarixli "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncamı isə 20 Yanvar hadisələrinin heç vaxt unudulmayacağının, xalqımızın tarixində qəhrəmanlıq və zəfər tarixi kimi yaşayacağının ifadəsidir. Sərəncamda deyilir: ***"1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur".***

**"Şərq qapısı"**

# Təbrizdə 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı tədbir keçirilib

***Yanvarın 16-da Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir.***

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərasimdə Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək demişdir ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik tarixinin şanlı səhifəsidir. Yanvarın 19-dan 20-nə keçən gecə qurbanlar verməsinə baxmayaraq, Azərbaycan xalqı milli azadlıq uğrunda mübarizliyini, əyilməzliyini, məğrurluğunu bir daha nümayiş etdirmişdir. Qeyd olunmuşdur ki, 20 Yanvar faciəsinə ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev öz etirazını bildirmişdir. Ulu öndər bütün təzyiqlərə baxmayaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində bəyanatla çıxış edərək etirazını bildirmiş, hadisəni törədənləri ittiham edərək günahkarların cəzalandırılmasını tələb etmişdir.



Diqqətə çatdırılmışdır ki, ulu öndər Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə müstəqilliyimiz üçün mühüm qərarlar qəbul etmiş, ilk dəfə 20 Yanvar faciəsinə siyasi qiymət vermişdir. Dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi qiymət verilmiş, 20 Yanvar "Ümumxalq Hüzn Günü" elan edilmiş, "20 Yanvar şəhidi" fəxri adı təsis olunmuş, Bakı şəhərindəki Şəhidlər xiyabanı yenidən qurularaq xalqımızın müqəddəs and yerinə çevrilmişdir. Baş konsul ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi və onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən də danışmışdır.

Mərasimdə 20 Yanvar hadisələrindən bəhs edən sənədli film nümayiş etdirilmiş, hazırlanmış fotostendlərə baxış olmuş, iştirakçılara əyani vəsaitlər paylanmış, ehsan süfrəsi açılmışdır.

İran İslam Respublikası Şərqi Azərbaycan Valiliyinin Siyasi və Seçki Məsələləri Baş İdarəsinin rəis müavini Əyyub Ağacanzadə, Şərqi Azərbaycan Vilayətinin Baş Mədəniyyət və İslami İrşad İdarəsinin baş direktorunun birinci müavini Əli Piruzmənəş, Şərqi Azərbaycan Vilayəti Mətbuat Evinin rəhbəri Murtəza Şəfii, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri Əkbər İsazadə və nümayəndəliyin əməkdaşları, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu Hüseyn Güngör və konsulluğun əməkdaşları, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları və kütləvi informasiya vasitələrinin əməkdaşları tədbirdə iştirak etmişlər.

Təbriz şəhərində nəşr olunan "Sərir Azərbaycan" qəzetinin 14 yanvar tarixli nömrəsində "20 Yanvar Azərbaycan Respublikasında Ümumxalq Hüzn Günüdür" başlıqlı məqalə dərc edilmişdir.

**"Şərq qapısı"**

# 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır

*AMEA Naxçıvan Bölməsində 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan "Tariximizin şərəfli və qəhrəmanlıq səhifəsi" mövzusunda elmi konfrans keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş ən qanlı hadisələrdən biridir.

Akademik 30 il öncə müasir tariximizə faciəli, eyni zamanda qəhrəmanlıq səhifələrindən biri kimi yazılan Qanlı Yanvar hadisəsi zamanı Azərbaycan xalqının səsinin heç yerə çatmadığı bir vaxtda ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedərək törədilmiş qırğını sərt tənqid etdiyini və etiraz səsini bütün dünyaya çatdırdığını bildirib. Qeyd edib ki, ulu öndərin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra bu hadisələrə siyasi-hüquqi qiymət verilib. 1994-cü ildə Milli Məclisin qəbul etdiyi xüsusi qərarda 20 Yanvar tarixi Ümumxalq Hüzn Günü elan edilib.

Vurğulanıb ki, faciə qurbanlarının əziz xatirəsini həmişə uca tutan Prezident İlham Əliyev onların adlarının əbədiləşdirilməsinə, şəhidlərimizin ailə üzvlərinə maddi və mənəvi qayğı göstərilməsinə diqqətlə yanaşıb.

Daha sonra AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın, həmin institutun Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilovun elmi məruzələri dinlənilib.

Naxçıvan Dövlət Universitetində 20 Yanvar faciəsinin 30 illiyinə həsr olunmuş anım tədbiri keçirilib. Əvvəlcə universitet televiziyasının faciə qurbanlarının əziz xatirəsinə həsr etdiyi videoçarxa baxış olub.

Sonra ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev çıxış edib. Qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə danışan rektor bildirib ki, xalqımız həmin tarixi həm də unudulmaz qəhrəmanlıq səhifəsi kimi yaşayıb. Çıxışda bu şanlı qəhrəmanlıq tarixinin gənc nəslə çatdırılması, eləcə də ona siyasi-hüquqi qiymət verilməsi ilə bağlı geniş təbliğat işlərinin aparılmasının zəruriliyi bildirilib.

Sonra Tələbə Teatr Studiyasının hazırladığı "Torpaq şəhidləri ilə ucalır" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub, "20 Yanvar faciəsi tariximizin qanlı yaddaşıdır" adlı kitab sərgisinə baxış olub.

* * *

***"Naxçıvan" Universitetində 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş "20 Yanvar xalqımızın hüzn və qəhrəmanlıq tarixidir" mövzusunda elmi konfrans keçirilib.***

Tədbir iştirakçıları ilk əvvəl universitetin tədris korpusunun foyesində 20 Yanvar hadisələrini əks etdirən foto, qəzet və jurnallara baxıblar. Tədbir başlanmazdan əvvəl şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu konfransı giriş sözü ilə açaraq 20 Yanvar faciəsinin Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olduğunu bildirib.

Konfransda universitetin Ümumi tarix kafedrasının müəllimləri, professor Vəli Baxşəliyev, Zülfiyyə Mehdiyeva, universitetin II kurs magistrantı Könül Vəliyeva çıxış ediblər.

Sonda tələbələr tərəfindən şəhidlərə həsr olunmuş şeirlər bədii qiraət olunub, "20 Yanvar səhifəsi hüzn və qürur günümüzdür" adlı slayd nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**



*1924-cü il yanvarın 18-də Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumunun Qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinin nəzdində Naxçıvan Daxili İşlər Komissarlığı yaradılmış və bununla da muxtar respublikada polis orqanlarının formalaşmasının əsası qoyulmuşdur.*

*18 yanvar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yaranması günüdür*

# Daxili işlər orqanlarının fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb

Azərbaycan polisinin, o cümlədən Naxçıvan polisinin əsl inkişafı, milliləşməsi isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra daxili işlər orqanlarına dövlət qayğısı güclənmiş, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə, milli kadrların yetişməsinə xüsusi önəm verilmişdir. Sovetlər Birliyinin süqutundan sonra da polis orqanlarına ən böyük kömək və qayğı 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyev tərəfindən göstərilmişdir. Belə ki, onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında Müdafiə Komitəsi yaradılmış və polis Müdafiə Komitəsi ilə birgə torpaqlarımızın qorunmasında fəal iştirak etmişdir.

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə igidlik, şücaət və əsl qəhrəmanlıq göstərən 16 polis əməkdaşı şəhid olmuş, 76 polis işçisi yaralanmışdır. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə yaranmış mürəkkəb vəziyyət muxtar respublikadan da yan keçməmişdir. Müstəqilliyin əldə edildiyi ilk illərdə hakimiyyət uğrunda gedən daxili çəkişmələr, torpaqlarımıza Ermənistanın hərbi təcavüzü, dövlət strukturlarına təyin edilmiş təsadüfi və səriştəsiz rəhbərlərin yarıtmaz işi muxtar respublikamızda da ictimai sabitliyin tez-tez pozulmasına, kriminogen durumun əməliyyat nəzarətindən çıxmasına səbəb olmuşdur. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan bir çox təhlükələrdən qorunmuşdur.

Azərbaycan polisi bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında məsuliyyətli və şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlir, göstərilən diqqət və qayğını, etimadı vicdanlı xidmətləri ilə doğruldurlar.

Bu gün Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında xidmət ən müasir tələblər səviyyəsində qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən daxili işlər orqanlarına göstərilən diqqət və qayğı nəticəsində muxtar respublikada cinayətlərin qarşısının alınması və açılması, ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlərin keyfiyyəti daha da yaxşılaşdırılaraq kriminogen durum tam nəzarətdə saxlanılmışdır. Xidmət sahələri, orqan və hissələr yeni informasiya texnologiyaları, xüsusi rabitə və texniki vasitələrlə tam təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılmış, Daxili İşlər Nazirliyi aparatının inzibati binası da daxil olmaqla, bütün ərazi polis orqanlarının inzibati binaları yenidən qurulmuş, ən müasir xidməti avtomobillər şəxsi heyətin istifadəsinə verilmişdir. Son illər polis sahə inspektorları üçün müasir tələblərə cavab verən 152 polis sahə məntəqəsi tikilib istifadəyə verilmişdir.

Xidməti avtomobillərin texniki baxışdan keçirilməsi işini asanlaşdırmaq məqsədilə Şərur, Culfa və Ordubad rayonları ərazisində Dövlət Yol Polisi İdarəsinin yeni texniki müayinə mərkəzləri tikilərək istifadəyə verilmişdir. Bu müayinə mərkəzlərində il ərzində, təxminən, 50 min avtomobilin texniki baxışdan keçirilməsi mümkündür. Yeni informasiya texnologiyasının tətbiqi sahəsində də bir sıra əsaslı tədbirlər həyata keçirilmişdir. Naxçıvan şəhərinin inzibati ərazisini əhatə edən "Təhlükəsiz şəhər" sistemi çərçivəsində şəhərin bir çox koordinatlarında təhlükəsizlik kameraları yenilənmiş, Şərur, Ordubad və Culfa rayon mərkəzlərində müşahidə kameraları quraşdırılmışdır. Nazirliyin internet saytında vətəndaşların müraciətlərinin elektron formada qəbulu üçün "Elektron poçt" guşəsi yaradılmış, ərazi və nəqliyyatda polis orqanlarının hamısı elektron sənəd dövriyyəsinə qoşulmuşdur.





Ali Məclis Sədrinin diqqət və qayğısı ilə daxili işlər orqanlarının keçdiyi böyük inkişaf yolunun daha bir əyani təsdiqi bu istiqamətdə çoxsaylı infrastruktur layihələrinin icra olunmasıdır. 2000-2018-ci illər ərzində Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının müasir səviyyəyə çatdırılması üzrə əməli-təşkilati tədbirlər işlənib həyata keçirilmiş, xidməti avtomobillər yeni model xarici markalı avtomobillərlə əvəzlənmişdir. Şəxsi heyətin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilmiş və bu gün də davam etdirilməkdədir. Bu baxımdan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında xidmət edən zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, hər biri 5 mərtəbəli 60 və 45 mənzildən ibarət 2 yaşayış binası tikilib istifadəyə verilmiş, mövcud 2 mərtəbəli 8 mənzildən ibarət yaşayış binasına 1 mərtəbə də əlavə olunmaqla, əsaslı təmir edilərək istifadəyə verilmiş, hərbi qulluqçuların istifadəsində olan yaşayış binaları əsaslı təmir olunmuşdur.

Daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi muxtar respublika rəhbərinin bu sahəyə qayğısının daha bir ifadəsidir. Belə ki, uğurlu kadr siyasətinin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kadr potensialının təkmilləşdirilməsi və müasir dövrün tələblərinə cavab verən gənc əməkdaşların hazırlanması nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılmış və 2019-cu ilin oktyabr ayında istifadəyə verilmişdir. Bu təhsil müəssisəsi Daxili İşlər Nazirliyi sisteminin peşəkar kadrlarla zənginləşdirilməsi ilə yanaşı, muxtar respublikanın təhlükəsizliyinə və gənclərdə dövlətçiliyə xidmət fəlsəfəsinin formalaşmasına, vətənpərvərlik hisslərinin gücləndirilməsinə hesablanmış vacib qərar kimi mühüm tarixi əhəmiyyətə malikdir.

Muxtar respublikada daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı aparılan uğurlu siyasət nəticəsində 2018-ci ilin oktyabr ayında nazirliyin Veteranlar Şurası yaradılmış, şəxsi heyətlə təlim-tərbiyə işlərinin təşkili, gənc əməkdaşların peşə vərdişlərinin artırılması, onlarda xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılması və digər məsələlərdə təqaüddə olan təcrübəli polis işçilərinin yaxından iştirakı təmin edilmişdir.

Son illər Daxili İşlər Nazirliyi sistemində cinayətkarlığa qarşı mübarizədə yeni metod və üsulların tətbiq edilməsi və həyata keçirilən ideoloji iş nəticəsində muxtar respublikada asayişin mühafizəsi sahəsində baş verən müsbət dəyişikliklər cinayətkarlığın statistikası ilə müqayisədə tam aydınlığı ilə əks olunur. Naxçıvan polisi öz göstəricilərinə görə Azərbaycan Respublikası daxili işlər orqanları arasında qabaqcıl yerdə dayanmaqla, cinayətkarlığa qarşı mübarizədə yaxşı nəticələr əldə etmişdir.

Bu gün Naxçıvan haqqında danışılanda fəxr edə biləcəyimiz çox uğurlar vardır. Bu uğurların qazanılması, əlbəttə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısının nəticəsində mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin cinayətkarlığa qarşı mübarizə sahəsində insan amilinə üstünlük verməsi, profilaktik və hüquqi maarifləndirmə tədbirlərinin daha effektli və əsaslı həyata keçirilməsi polis orqanlarının qarşısında bir proqram sənəd kimi qoyulmuş, yüksək etimad müsbət uğurların əldə olunmasına birbaşa stimul yaradaraq əsaslı dönüşə səbəb olmuşdur.

*Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarının əməkdaşları göstərilən etimadı bundan sonra da doğrultmaq üçün bütün qüvvə və vasitələri səfərbər etməklə, muxtar respublikada ictimai asayişi və təhlükəsizliyi tam təmin edəcək, xidmət andına sadiq qalaraq polis adını şərəflə qoruyacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Zabit olmağın şərəfi dövlətə və dövlətçiliyə sədaqətli olmaqdan, vəzifə və vətəndaşlıq borcunu vicdanla yerinə yetirməkdən ibarətdir".***

***Naxçıvan Muxtar Respublikası***
***Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

*18 yanvar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yarandığı gündür*

# Muxtar respublikada ədliyyə orqanları dövlət qayğısı ilə əhatə olunub

*Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın18-də yaradılmışdır.*

Müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların qəbulu və təkmilləşdirilməsi davamlı prosesə çevrilmişdir. Bu istiqamətdə həyata keçirilən islahatlar, tətbiq olunan yeniliklər zamanın tələbləri ilə səsləşmiş, cəmiyyətin inkişafını, başlıcası isə insan və vətəndaş hüquq, azadlıqlarının təmini məsələlərini əsas amil kimi götürmüşdür. Həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsində qurulması üçün əsaslı tədbirlər görülmüş, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyulmuşdur.

Ümummilli liderin hüquq siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin insan haqlarının etibarlı qorunması, hüquq xidmətinin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoymuşdur. Belə ki, ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmişdir.

Muxtar respublika rəhbərinin ədliyyə sahəsinə diqqət və qayğısı nəticəsində ədliyyə orqanlarının müasirləşdirilməsi və inkişafı ilə bağlı son illərdə müvafiq qərarlar qəbul olunmuş, nazirliyin fəaliyyət istiqamətləri üzrə xidməti sahələrinin inkişafına diqqət yetirilmiş, 2005-ci ildə Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı, 2015-ci ildə isə həmin filialın əsasında Məhkəmə Ekspertizası Mərkəzi yaradılmışdır. Mərkəzin yaradılması ekspertiza işlərinin yüksək səviyyədə aparılmasına, hüquq-mühafizə orqanları tərəfindən təyin edilmiş ekspertiza işlərinin vaxtında və hərtərəfli araşdırılmasına böyük köməklik göstərmişdir.

2007-ci ildə nazirliyin tarixində ilk dəfə olaraq Penitensiar Xidmət yaradılmışdır. Xidmətin yaradılması muxtar respublikada cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərmiş, insan haqlarının etibarlı qorunmasına xüsusi ehtiyac duyulan bu sahədə müasir infrastrukturun yaradılması üzrə ardıcıl tədbirlər həyata keçirilməyə başlanmışdır. Məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi, İstintaq Təcridxanası, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsi tikilib istifadəyə verilmişdir.

Muxtar respublikada məhkumluq həyatı yaşayan insanların müxtəlif peşələr üzrə kurslara cəlbi və azadlığa buraxıldıqdan sonra öz peşələrinə uyğun işlə təmin olunması da diqqət mərkəzində saxlanılmış, Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada müasir elektron tələblərə cavab verən "elektron məhkəmə" və "elektron icra" sistemləri qurulub istifadəyə verilmişdir. Müasir texnologiyaların icra məmurlarının fəaliyyətində tətbiqi vətəndaşların onlara müraciət imkanlarının genişləndirilməsinə, icra prosesinin həyata keçirilməsində operativliyin və aşkarlığın təmin edilməsinə, məhkəmə və digər orqanların qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edir.



Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən nazirlik əhalinin hüquqi maarifləndirilməsində iştirak edir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatına və dövlət reyestrinə, penitensiar sistemə, notariat orqanlarının və qeydiyyat orqanlarının fəaliyyətinə rəhbərlik edir, məhkəmələrin və digər orqanların qərarlarının icrasını, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə statistikasının aparılmasını, bələdiyyələrə metodoloji yardım və inzibati nəzarəti, məhkəmə ekspertizalarının keçirilməsini və digər vəzifələrini təmin edir.

Hüquqi dövlətin inkişafı möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Son illər ərzində ədliyyə sisteminin müasirləşdirilməsi və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə çox mühüm addımlar atılmışdır. Bütün bu inkişafın fonunda ədliyyə orqanları işçilərinin sosial təminatının yaxşılaşdırılması, onların dövlət təltiflərinə, fəxri adlara və yüksək ali rütbələrə layiq görülməsi ədliyyə sisteminə göstərilən dövlət qayğısının bariz ifadəsidir. Qürurla deyə bilərik ki, muxtar respublikada gedən sürətli sosial-iqtisadi inkişaf əhalinin rahat və təhlükəsiz yaşamasına, onların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına xidmət edir. Bu da hər bir ədliyyə işçisinə stimul verir ki, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlsin, öz fəaliyyəti ilə ölkəmizin inkişafına töhfəsini versin. Ədliyyə işçiləri bundan sonra da xidməti vəzifələrini məsuliyyətlə yerinə yetirəcəklər.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***



*18 yanvar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yarandığı gündür*

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir

***1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış və səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur.***

Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir”.***

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirməsi səhiyyə sisteminin də inkişafına səbəb olub. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının icrası vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, xəstələrin dərmanla təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına imkan vermişdir.

Muxtar respublikada da əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə tədbirlər 2019-cu ildə də davam etdirilmiş, Şərur Rayon Uşaq Xəstəxanası, Kərimbəyli və Muğanlı, Babək rayonunun Kültəpə, Ordubad rayonunun Dəstə, Kəngərli rayonunun Böyükdüz kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Alışar, Xələc, Babək rayonunun Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq əhalinin istifadəsinə verilmişdir.

Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar rayon mərkəzi xəstəxanalarında yenidənqurma işləri aparılmış, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılmış, “Səhiyyə İnformasiya İdarəetmə Sistemi” qurulmuş və vahid məlumat bazasının idarə edilməsi üçün server otağı təşkil edilmişdir. Sədərək, Şərur, Kəngərli, Şahbuz, Babək, Ordubad və Culfa rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanılmış, tibb işçilərinin əməkhaqları artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncama əsasən 2020-ci il yanvarın 1-dən Naxçıvan şəhərində icbari tibbi sığorta tətbiq edilməyə başlanmışdır. Bu məqsədlə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına, Naxçıvan Muxtar Respublika, Əziz Əliyev adına Mərkəzi Uşaq xəstəxanalarına, Naxçıvan Muxtar Respublikası Kardioloji və Doğum mərkəzlərinə publik hüquqi şəxs statusu verilmişdir. Həmin səhiyyə müəssisələrində çalışanların aylıq vəzifə maaşları 2020-ci il yanvarın 1-dən 50 faiz artırılmışdır.

Bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində Almaniya istehsalı “SİEMENS ARTİS ZEE” markalı döşəmətipli müasir angioqrafiya aparatı quraşdırılmışdır. Ötən il “Nəxşicahan Med” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Doğum Mərkəzinə hamiləlikdə döldə və yeni doğulmuşlarda ürək qüsurunun aşkar olunması üçün stasionar exo-kardioqraf aparatı hədiyyə edilmişdir. Naxçıvan Muxtar Respublikasında səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin təqdim olunması da xidmətin təşkilində keyfiyyətcə yeni mərhələ açmışdır.

Hazırda səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Səhiyyə müəssisələri Təcili yardım, Elektrokardioqrafiya, Exokardioqrafiya, EKQ-tredmil, Rentgen, Çoxprofilli diaqnostika, Hemodializ, Cərrahiyyə, Kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stent qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunmuşdur. Bu da əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri onlara həm maddi, həm də mənəvi dəstək olmuşdur.

Vətəndaşların kütləvi tibbi müayinədən keçirilməsi barədə ölkə başçısının müvafiq tapşırığı, səhiyyə





sistemində qəbul edilmiş dövlət proqramları hər il muxtar respublikamızda da uğurla icra olunur, tibbi xəstələr əlavə müayinələrə cəlb edilir. Ahıl, eləcə də torpaqlarımızın və dövlətçiliyimizin qorunması zamanı sağlamlıqlarını itirmiş vətəndaşların, müxtəlif yaş qrupuna daxil olan əhalinin kütləvi müayinələri diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada uşaqların sağlam böyüməsi üçün tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması bu sahədə görülən işlərin davamıdır. Publik hüquqi şəxs statuslu Şərur və Ordubad rayon uşaq xəstəxanalarının yaradılması gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində görülən mühüm tədbirlərdəndir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları fəaliyyətlərini davam etdirir, yerlərdə əhalinin müayinə-müalicə işi ilə məşğul olurlar. Süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə uşaqlar arasında tuberkulin və diaskin test sınağı, flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların, tələbələrin kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji və digər müayinələri davam etdirilir. Uşaqlara tibbi xidmət göstərən səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müasir tibbi avadanlıqlarla təchiz edilməsi, tibbi kadrların peşə səviyyəsinin artırılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması nəticəsində onlar arasında bəzi yoluxucu xəstəliklərin tam ləğv olunması, somatik və irsi-genetik xəstəliklərin isə azalması körpə ölümünün minimuma endirilməsinə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi” haqqında 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Tibb Kolleci Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin himayəsinə verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində Səhiyyə Nazirliyi ilə bu təhsil müəssisələri arasında əlaqələr daha da genişlənmişdir.

Bu gün muxtar respublikada əhaliyə 226 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Həmin tibb müəssisələrində 695 həkim, 2 min 200-dən artıq orta tibb işçisi çalışır. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün tədris kompleksinin istifadəyə verilməsi, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Hər il keçirilən səhiyyə yarmarkaları isə gənc tibbi kadrların işlə təminatında mühüm rol oynayır.

Muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Naxçıvan Muxtar Respublikasının tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər”.***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## 20 Yanvar faciəsinə həsr olunan sərgi açılıb



***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “20 Yanvar faciəsindən 30 il ötür” adlı rəsm sərgisi açılıb.***

Sərgidə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək faciənin başvermə səbəblərindən, hadisəyə siyasi-hüquqi qiymət verilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, muxtar respublikada fəaliyyət göstərən rəssamlar şəhidlərimizə ehtiram əlaməti olaraq bu mövzuya tez-tez müraciət edir, silsilə əsərlər yaradırlar. Faciənin 30 illiyi ilə bağlı təşkil olunan növbəti sərgidə 20 Yanvar hadisələri rənglərin dili ilə sənətsevərlərimizə təqdim edilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Əli Səfərov, Həmzə Sadiqov, Azərbaycan Rəssamlar İttifaqının üzvü Qəhrəman Tağıyev, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli, dosent Ələkbər Qasımov çıxış ediblər.

Sonra sərgiyə baxış olub. “Ümummilli lider Şəhidlər xiyabanında”, “Şəhidlər xiyabanı”, “Şəhid anası”, “20 Yanvar şəhidləri”, “20 Yanvar”, “Silahdaşın yanında” və digər əsərlər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, bir həftə davam edəcək sərgidə muxtar respublikada fəaliyyət göstərən 20 rəssamın 30 əsəri nümayiş etdirilir.

**Pərviz HACILI**

## Gənclər hərbi xidmətə yola salınıblar

***Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Tədbiri idarənin rəis müavini, polkovnik-leytenant Sultan Zamanov açıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Naxçıvan Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Davud Süleymanov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşı, III dərəcəli hüquqşünas Ramiq Əliyev çıxış edərək hərbi xidmətə yola salınanlara uğurlar arzulayıblar.

Valideyn Elbrus Nağıyev çağırışçı gənclərə xeyir-dualarını çatdırıb.

Çağırışçılar adından çıxış edən İbrahim Zeynalov Vətənə xidmət etməyin onlar üçün ən ali borc olduğunu bildirib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov çıxış ediblər.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Şərur rayonu, Çərçiboğan kənd sakini Kərimov Surəddin Abuzər oğlunun adına verilmiş JN-542 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 48